## *AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTUNUN 90 İLLİYİNƏ İTHAF OLUNUR*

UOT 371

# İNSTİTUTUN "ELMİ ƏSƏRLƏR"İ
# НАУЧНЫЕ ТРУДЫ ИНСТИТУТА
# SCIENTIFIC WORKS OF THE INSTITUTE

Əməkdaşların elmi-metodik sahədə gördüyü işlər, elmi məqalələri institutun "Elmi əsərlər"ində özünə yer alır. "Elmi əsərlər" institutun fəaliyyət istiqamətlərindən biridir.

"Elmi əsərlər" 1934-cü il yanvar ayından nəşr olunur. Onun ilk redaktoru Qulam Məmmədli, sonralar prof. N.M. Kazımov olmuşdur. 1975-ci ildə məlum olmayan səbəbdən "Elmi əsərlər"in nəşri dayandırılmışdır.

Bir də jurnal öz fəaliyyətini 27 il sonra - 2002-cü ildə davam etdirmişdir. Həmin vaxt institutun "Elmi əsərlər"inin baş redaktoru prof. A.O. Mehrabov, baş redaktor müavinləri professorlar Yəhya Kərimov və Əjdər Ağayev, məsul katibi prof. Akif Abbasov olmuşdur. 2014-cü ildən etibarən isə, jurnalın baş redaktoru fəlsəfə doktoru Qulu Novruzov, baş redaktorun müavini prof. Akif Abbasov olmuşdur.

ARTİ-nin "Elmi əsərlər"i Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 11 iyul 2002-ci il tarixli 23 nömrəli əmri ilə qeydə alınmışdır.

Jurnal respublika Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol N 10-R) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı"na daxil edilmişdir.

2016-ci ildən baş redaktor prof. Akif Abbasov, baş redaktor müavini prof. Hümeyir Əhmədov, məsul katib pedaqogika üzrə fəlsəfə doktoru, dosent İlham Cavadovdur.

Hazırda "Elmi əsərlər"in redaksiya heyəti və redaksiya şurası aşağıdakı kimi formalaşdırılmışdır. Redaksiya heyətinə daxildir: Emin Əmrullayev; kimya ü.f.d. Rüfət Əzizov; siyasi e.ü.f.d. Anar Nağıyev; ped.ü.f.d., dos., Ənvər Abbasov; kimya ü.f.d. Rəfiq Qəndilov; ped.ü.e.d., prof. Vidadi Xəlilov; ped.ü.e d., prof. Fərahim Sadıqov; ped.ü.e d., prof. Fərrux Rüstəmov; ped.ü.e d., prof. Hikmət Əlizadə; psixol.ü.e.d., prof. Ramiz Əliyev; ped.ü.e.d. İntiqam Cəbrayılov; ped.ü.e.d. Piralı Əliyev; ped.ü.e.d., prof. Şahin Tağıyev; ped.ü.e.d., prof. Müdafiə Mahmudov; ped.ü.e.d., prof. Mübariz Əmirov; ped.ü.e.d., prof. Novruz Musayev; kimya ü.f.d. İqrar Nəzərov.

Redaksiya şurasına daxildir: B.H. Əliyev (Bakı Dövlət Universitetinin kafedra müdiri, AMEA-nın müxbir üzvü, prof.); A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.ü.e.d., prof.); Y.Ş. Kərimov (Azərbaycan Respublikasının Təhsil İnstitutunun böyük məsləhətçisi, ped.ü.e.d., prof.); N.D. Nikandrov (Rusiya Təhsil Akademiyasının akademiki, ped.ü.e.d., prof., Moskva); A.K.Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.ü.e.d., prof., Alma-Ata); O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.ü.e.d., prof., Kiyev); İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.ü.e.d., prof., Düşənbə); V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, dr., prof. (Nyu-York); A.A. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə), A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.ü.e.d., prof., Moskva); N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol.ü.f.d., dosent, Samara).

"Elmi əsərlər"də əsasən aşağıdakı rubrikalar üzrə elmi məqalələr dərc olunur: "Baş redaktordan", "Ümumpedaqoji problemlər", "Metodika: fənlərin tədrisi", "Tərbiyə texnologiyaları", "Məktəb və pedaqoji fikir tarixi", "Məktəbşünaslıq", "Pedaqoji diaqnostika məsələləri", "Pedaqoji ekspertiza məsələləri", "Müəllimin özünütəhsili", "Psixologiya, yaş fiziologiyası, ink-

lüziv təhsil", "Məktəbəqədər və ibtidai təhsil", "Azərbaycanın elm və mədəniyyət xadimləri", "Riyaziyyatın tədrisi metodikası", "Fizikanın tədrisi metodikası", "Kimyanın tədrisi metodikası", "Biologiyanın tədrisi metodikası", "İnformatikanın tədrisi metodikası", "Ədəbiyyatın tədrisi metodikası", "Azərbaycan dilinin tədrisi metodikası", "Xarici dillərin tədrisi metodikası", "Musiqinin tədrisi metodikası", "Tarixin tədrisi metodikası", "Coğrafiyanın tədrisi metodikası", "Təsviri incəsənətin tədrisi metodikası", "Fiziki tərbiyənin tədrisi metodikası, idman və sağlam həyat tərzi", "Texnologiya fəninin tədrisi metodikası", "Həyat bilgisinin tədrisi metodikası", "Təhsildə monitorinq və qiymətləndirmə", "İnformasiya kommunikasıya texnologiyalarının təhsilə tətbiqi", "Psixologiya və korreksiya pedaqogikası", "Dərsdənkənar iş", "Təhsilin keyfiyyətinin yüksəldilməsi və idarə olunması" və s.

"Elmi əsərlər"in səhifələrində nəinki institut əməkdaşlarının, həmçinin müxtəlif ali və orta ixtisas təhsil müəssisələri alimlərinin və müəllimlərinin, təhsil və tərbiyə müəssisələri işçilərinin elmi məqalələri işıq üzü görür. Ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərinin üzvləri də təlim, tərbiyə və təhsil prosesinin səmərəli təşkili, sinfin və təhsil müəssisəsinin idarə olunması, fənlərin tədrisi ilə bağlı jurnala məqalələr təqdim edirlər.

Elmlər doktoru və fəlsəfə doktoru proqramları üzrə doktorant və dissertantlarının apardığı tədqiqatların nəticələrinə aid məqalələrinin çap olunması da diqqət mərkəzində dayanır.

"Elmi əsərlər"in ildə 6 nömrəsi işıq üzü görür. Məqalələr diqqətlə araşdırılır, rəylərə göndərilir. Jurnalın axırıncı səhifələrində 3 dildə (Azərbaycan, rus və ingilis dillərində) təqdim olunan məqalələrə verilən tələblər öz əksini tapmışdır. Müəlliflərin həmin tələblərə əməl etməsinə nəzarət olunur, eyni zamanda üç dildə açar sözlərin və xülasələrin yazılması məqsədəuyğun sayılır.

Materialların toplanması, qaydaya salınması, oxunması, redaktə olunması işində həm redaksiya heyəti üzvləri, həm də redaksiya üzvləri pedaqogika üzrə fəlsəfə doktorları İradə Əmirəliyeva və Lalə Məmmədli, böyük elmi işçi Dinarə Əsədova və Elmi katibliyin əməkdaşı Günel Quluzadə yaxından kömək göstərirlər.

"Elmi əsərlər"də respublika pedaqoqları ilə yanaşı xarici ölkə alimlərinin aktuallıq daşıyan məqalələrinə də geniş yer ayrılır. Belə ki, jurnalın son nömrələrində Moskva Təhsil İşçilərinin İxtisasının Artırılması və Peşə Yenidənhazırlanması Akademiyasının baş müəllimi Y. Sidenkonun "Müəllimin fəaliyyəti motivlərinin qarşılıqlı əlaqəsi və onlar tərəfindən təlim metodlarının seçilməsi haqqında" və "Təhsil müəssisəsində innovasiyaların tətbiqi və həyata keçirilməsi zamanı idarəetmə fəaliyyətinin – SWOT – təhlili"; Huzhou Univeristetinin professoru, pedaqogika üzrə elmlər doktoru L. Pirojenkonun (Çin Xalq Respublikası) "Ukrayanda ali təhsilin modernləşdirilməsi: problem və perspektivlər" və "Çin Xalq Respublikasında təhsilin inkişafının əsas istiqamətləri"; ADPU-nun fəlsəfə doktoru proqramı üzrə doktorantı Cesim Akselin (Türkiyə Respublikası) "Azərbaycan-Türkiyə elmi-pedaqoji əlaqələrini şərtləndirən ictimai-siyasi, elmi-mədəni mühit (1990-2000-ci illər)"; Kastamonu Universitetinin Psixoloji danışmanlı və rəhbərlik fakültəsinin müəllimi Şənay Quliyeva-Kabaoğlunun (Türkiyə Respublikası) "Tələbə qızlarda identlik"; filologiya üzrə fəlsəfə doktoru, dosent, Huçjou Universitetinin Mədəniyyətlərarası Tədqiqat Mərkəzinin eksperti (ÇXR) İ. Şevlyakova-Borzenkonun "Ümumi orta təhsildə təlim prosesinin keyfiyyətinin monitorinqi: Belarus Respublikasında innovativ elmi-metodik təminatın hazırlanma təcrübəsi" və s. mövzularda elmi məqalələri çap olunmuşdur.

Son vaxtlarda jurnalda "Vətən Müharibəsində qazandığımız uğurlar" rubrikası ilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamları, xalqa müraciəti, həmçinin bir sıra silsilə elmi məqalələr verilmişdir.

Professor A.N. Abbasovun "Azərbaycan Respublikasının erməni-faşist işğalçıları üzərində siyasi və hərbi qələbəsi", "Təhsilalanlarda erməni vəhşiliyi, erməni vandalizmi və barbarlığına dair təsəvvürlərin genişləndirilməsi", Lalə Məmmədlinin "Şagirdlərin Azərbaycanın Milli Qəhrəmanları nümunəsində tərbiyə olunması" və "Sinifdənxaric tədbirlər zamanı Vətən müharibəsinə dair materiallar üzrə şagirdlərlə aparılacaq işlər", Rəhiməxanım Məmmədzadənin "Şagirdlərdə düşmənə nifrət hissinin formalaşdırıl-

ması" məqalələri institutun "Elmi əsərlər"ində yer almışdır.

"Baş redaktordan" rubrikası altında "Azərbaycan müəllimlərinin XV qurultayı: görülmüş işlər, təhsilin qarşısında dayanan mühüm vəzifələr, perspektivlər", "Dərslik yazmaq məsuliyyət tələb edir", "Elmi məqalənin yazılması savad, səriştə və məsuliyyət tələb edir" və s. mövzusunda materiallar nəşr olunmuşdur.

Həmin yazılar, eyni zamanda institut əməkdaşlarından Ənvər Abbasovun "12 illik təhsil: bəzi pedaqoji paradiqmalar" və "Ümumi təhsil standartlarının yaradılması və inkişafına dair", İntiqam Cəbrayılovun "Kitabi-Dədə Qorqud" - Azərbaycan xalqının zəngin tarix, mədəniyyət və mənəviyyat abidəsidir", İradə Əmirəliyevanın "Məktəbəqədər yaşlı uşaqların mənəvi hisslərinin və etik şüurunun tərbiyə olunması" və "Şah İsmayıl Xətai yaradıcılığında mənəvi saflığın tərənnümü"; Nigar Muradovanın "Kitabi-Dədə Qorqud" dastanında şəxsiyyətin əxlaqi-mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları"; institutun doktorant və dissertanlarından Sahib Məmmədovun "Pandemiya şəraitində ali məktəblərdə təlim prosesində auditoriyanın idarə olunması", Emilya Hüseynovanın "Sinifdənxaric tədbirlər zamanı yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması"; respublikanın tanınmış pedaqoqlarından - professorlar Fərrux Rüstəmovun "Yaradıcı ürəklərin simfoniyası", Müseyib İlyasovun "Təhsil prosesinin məntiqi strukturu haqqında", Firədun İbrahimov və Mehriban Kərimovanın "Riyaziyyatın tədrisi prosesində şagirdlərin fəaliyyətlərinin tənzimlənməsinin idraki və texnoloji aspektləri", Mübariz Əmirovun "Ümumtəhsil məktəblərində tarix üzrə dərsdənkənar işlərin təlim-tərbiyənin keyfiyyətinə təsiri", Kamal Camalovun "Mollanəsrəddinçi Mirzə Cabbar Əsgərzadə yaradıcılığında əxlaqi görüşlərin təsviri" mövzularında elmi məqalələri pedaqoji ictimaiyyətin, müəllimlərin, pedaqoq və psixoloqların marağına səbəb olmuşdur.

**Akif Abbasov**,
*Jurnalın Baş redaktoru,*
*Pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*